# İkinci sinifdə leksik nöqdanların aradan qaldırılması üzrə işin təşkili

**Fidan Məhəmməd qızı Abdullayeva**
*Bakı Qızlar Universitet*
**E-mail:** abdullayeva.ayn@gmail.com

**Rəyçilər:** filol.ü.f.d., dos. Q.G. Qəmbərova,
p.ü.f.d., dos. R.S. Əliyev

**Açar sözlər:** məktəb, şagird, söz, nitq, sinif, cümlə, mətn, məzmun
**Ключевые слова:** школа, ученик, слово, речь, класс, предложение, текст, содержание
**Key words:** school, student, word, speech, class, sentence, text, content

Məktəbə qədəm qoyan 5 yaşlı şagirdlər xeyli söz ehtiyatına malik olur, müşahidə etdikləri hadisə və əşyalar haqqında fikir yürütməyi az da olsa bacarırlar. Ancaq bunun bütün şagirdlərə aid olduğunu iddia etmək, şagirdlərin heç də hamısının lüğət ehtiyatı zəngin olmur, onların bəziləri sərbəst cümlə qurmaq vərdişləri olmur, feilin danışmaq zamanlarını qarışdırır, "dünən" əvəzinə "sabah" sözü işlədirlər. Məhz buna görə də məktəbdə uşağın nitqi üzərində planlı iş aparılmalıdır. Deməli, ibtidai siniflərdə Azərbaycan dili üzrə məşğələlərin əsas məqsədi şagirdlərin şifahi və yazılı nitqini inkişa etdirməkdir. Bəs ibtidai siniflərdə şagirdlərin nitqinin inkişafı üzrə iş hansı istiqamətdə getməlidir?

Şagirdlərin şifahi nitqi üzərində aparılan müşahidələr göstərir ki, onların nitqi çox nöqsanlı olur. Belə ki, ayrı-ayrı söz və səslər yanlış tələffüz olunur; Nitqin əsas tələbləri gözlənilmir. Qrammatik qaydalar, məntiq və üslub tələblərinə riayət olunmur; Nitqdə dilə yad sözlər işlədilir, yerli şivə xüsusiyyətlərinə yol verilir və s. Şifahi nitqə verilən tələbləri belə ümumiləşdirmək olar: 1) məzmunlu və inamlı; 2) ardıcıl və məntiqi; 3) qısa, düzgün, emosional və ifadəli danışmaq.

İbtidai siniflərdə nitq inkişafı üzrə aparılan işlərin nəticəsi şagirdlərin öz fikirlərini rabitəli şəkildə necə ifadə etmələri ilə müəyyənləşdirilir. Rabitəli nitq dedikdə, şagirdin öz bilik və yaş səviyyəsinə görə xarici aləmi düzgün dərk etməsi və dərk etdiyini qrammatik, üslubi cəhətdən düzgün ifadə etməsi nəzərdə tutulur. Şagirdlər gördükləri və eşitdikləri, eləcə də həyat təcrübələri haqqında danışarkən, yaxud yazarkən, sözləri yerli-yerində dəqiq işlətməyi və cümlələri qrammatik cəhətdən düzgün qurmağı bacarmalıdırlar. Bu nöqteyi-nəzərdən lüğət və cümlə üzərində aparılacaq iş rabitəli nitqin inkişaf etdirilməsi üçün həm hazırlıq mərhələsi, həm də onun mühüm şərtlərindən biridir.

Şagird fikrini ardıcıl, məntiqi ifadə edərkən, bu və digər sözü yerində işlətməzsə, yaxud cümlələri düzgün qurmazsa, onun nitqi rəbitəli ola bilməz. Rabitəli nitq üzərində iş işə şagirdin məktəbə gəldiyi ilk gündən başlanmalıdır. Əlifba təlimi dövründə ayrı-ayrı söz, cümlə və mətnlərin məzmunu ilə əlaqədar olaraq onlar şəkillər əsasında cümlələr qurur, danışır, mətnin məzmununa əlavələr edirlər. Suallara cavab üzrə iş şagirdləri müstəqil yazılara, rəbitəli nitqin əsas növləri olan ifadə və inşa yazmağa hazırlayır. İfadə və inşalar şagirdlərin müstəqilliyini və fəallığını artıran mürəkkəb çalışma və iş formalarıdır. Onlar bir sıra ümumi cəhətlərə malikdir: cümlələri, fikirləri ümumi məzmun və ümumi ideya ətrafında birləşdirib rabitəli mətn qurmağı tələb etməklə, təfəkkürün və nitqin inkişafında mühüm rol oynayır. Rabitəli nitqə verilən başlıca tələblər aşağıdakılardan ibarətdir:

1. Nitq məzmunca dolğun olmalıdır. Şagird dildən öz fikrini başqalarına çatdırmaq, eləcə

də başqalarının fikrini başa düşmək üçün istifadə edir. Fikir olmayan yerdə, onu ifadə etməyə ehtiyac da olmaz; yəni dil də olmaz. Bunu nəzərə alaraq, hər şeydən əvvəl, şagirdin haqqında danışacağı materialı yaxşı mənimsəməsinə çalışmaq lazımdır.

2. Şagirdin danışdığı material müəyyən məntiqi ardıcıllıqla ifadə edilməlidir. Fikrin ardıcıllığı pozulduqda nitqdəki rabitə də pozulur və dinləyən şəxs danışanı çətinliklə başa düşür.

3. Dolğun məzmun və ardıcıl hadisələr qrammatik, üslubi cəhətdən düzgün qurulmuş, leksik cəhətdən zəngin olan cümlələrlə ifadə olunmalı, hər bir sonrakı cümlə əvvəlki ilə müəyyən məntiqi və sintaktik əlaqəyə girməli, onun mənasını açmalı, tamamlamalıdır.

4. Rabitəli nitqin dolğun və səlis olması, şagirdin əsas və ikinci dərəcəli hadisələri bir-birindən ayıra bilməməsi, mühüm əhəmiyyəti olan məsələləri ön plana çəkə bilməsi ilə bağlıdır. Çünki bəzən şagird hadisənin ümumi inkişaf xəttində əsas yer tutan məsələni unudur, az əhəmiyyəti olan məsələlər üzərində dayanır ki, bu da mənasız uzunçuluğa, fikrin zəif və natamam ifadə olunmasına gətirib çıxarır.

5. Rabitəli nitqə verilən tələbələrdən biri də odur ki, şagird hazır kitab cümlələrini əzbərləməsin, fikrini müstəqil, sərbəst şəkildə ifadə edə bilsin. Onun yazısında, danışığında öz üslubi, öz nəfəsi, öz ruhu hiss olunsun.

M.İ. Kalinin hazır kitab cümlələri ilə danışan şəxslər haqqında demişdir: "Sizin düşüncəniz işləmir, yalnız diliniz işləyir. Hələlik siz öz dilinizlə deyil, özgə dili, hazır cümlələrlə danışmağa çalışırsınız. Sizin çıxışlarınızla öz fikriniz, canlı fikir büruzə verilmir. Sizin nitqiniz insanı qızdırmayan ay işığına bənzəyir. Öz cümlələrinizi özünüz qurmalısınız". Deməli, rabitəli nitq şagirdin müstəqilliyini, yaradıcılıq meylini və inkişaf etdirməlidir.

Şifahi xalq yaradıcılığı nümunələrindən məqsədəuyğun şəkildə istifadə üzərində işin təşkili şagirdlərin oxusunun ifadəliliyinə öz müsbət təsirini göstərir, nitqini daha ifadəli edir. Çünki atalar sözləri, məsəllər, sınamalar, diləklər və s. Məzmunla mətnlərin nəqli, sual, əmr intonasiyaları məntiqi vurğu çalarları ilə məlahətli səslənir və şagirdlərdə xoş ovqat və yaxud da təəssürat yaradır. Məsələn, "Lal axan çaydan içməzlər" məsəli həm də inancdır; şagirdlərə əgər buna uyğun misal kimi, "Suyun lal axanı, adamın yerə baxanı" məsəli tapdırılsa və deyilərsə, habelə "Sirkə nə qədər tünd olarsa, öz qabını sındırar" məsəlinin izahı zamanı "Hirsli başda ağıl olmaz" məsəlindən istifadə olunur, "Nə tökərsən aşına, o da çıxar qaşığına" məsəlinin izahı üçün "Yaxşılıq da qazanılır, pislik də", "Hər kəs öz əməlinin nəticəsini görür", "Yaxşılıq edən yaxşılıq görər, pislik edən-pislik", "Başqasına quyu qazan özü düşər" və s. Nümunələrdən istifadə olunması oxu prosesində qazanılan və nitqə daxil edilən emosional-obrazlı ifadələr, müdrik kəlamlardır. Bunların hər birinin üzərində oxu zamanı cürbəcür məqsədli və formalı işlər görmək mümkündür.

Təbiidir ki, nitq inkişafının müxtəlif elmlərlə əlaqəsi vardır. Nitq inkişafı metodikasının psixilogiya ilə əlaqəsindən bir az bəhs edək. Şifahi işarələr sistemindən ibarət olan dil ünsiyyət vasitəsidirsə, nitq fəaliyyət prosesinin özüdür. Psixologiya isə nitqi öyrənməklə nitq fəaliyyətinin növlərini müəyyən edir, uşaqlarda nitq ünsiyyətinin yaranma yollarını aydınlaşdırır, insanın müxtəlif şəraitdə dildən istifadə etmə xüsusiyyətlərini müəyyənləşdirir. Nitq inkişafı metodikasının ədəbiyyatşünaslıqla əlaqəsi şifahi xalq ədəbiyyatını, klassik və müasir yazıçıların uşaqlar üçün yazdıqları əsərlərə bələd olmadan uşaqların nitqinin inkişafını sürətləndirmək olmaz. Bu baxımdan tərbiyəçi uşaq ədəbiyyatının sirlərinə bələd oimalıdır.

Hər bir yaş dövrü üçün müvafiq ədəbi əsərlərin seçilməsi, onların oxunması, əsərin personajları, əsərin qəhrəmanlarının xarakterinin təsiri, onların hərəkətlərinə münasibətin bildirilməsi, əsərin oxunması, intonasiya, vurğu, diskussiya, ritm, temp, ədəbi tələffüz qaydalarının üzrə iş aparmağa imkan verir. Nitq inkişafı metodikası fiziologiya elmi ilə də əlaqədardır.

Nitq fəaliyyəti müxtəlif nitq hadisələrinin məzmunundan asılı olaraq çox mürəkkəb fizioloji mexanizmdir. Fiziologiyada sözə bilavasitə siqnalları – hissetmə, qavrama və təsviri əvəz edən xüsusi siqnal kimi, dilə isə ikinci siqnal kimi baxılır. Fizioloji məlumatlar nitqin formalaşmasında nitq orqanlarından gələn eşitmə və kinestetik (hərəki) impulsların böyük rolunu təsdiq edir. Fizioloji biliklər uşağın nitqiniin formalaşması prosesini daha dərindən başa düşməyə kömək göstərir. Nitq inkişafının metodikası sahəsində iş apararkən uşaqların nitq orqanlarının quruluşu haqqında anatomiyanın məlumatlarından da istifadə olunur. Nitq inkişafı metodikasının psixologiya elmi ilə, xüsusi ilə uşaq psixologiyası və pedaqoji psixologiya ilə sıx əlaqədardır. Metodika psixologiyanın uşağın inkişafının sosial hadisəsi olması, uşağın təlim və tərbiyəsinin onun əqli inkişafında aparıcı rol oynamasına əsaslanır. Nitq inkişafı üzrə işə verilən tələblər: nitqin inkişaf etdirilməsi üzrə işə vaxtında başlanılması, iş uşağın dil açdığı dövrə saxlanılmamalıdır. Uşağın nitqinin inkişafına istiqamət verilməli, müəyyən məşğələlərin köməyi ilə idrak fəaliyyəti formalaşdırılmaldır. Uşaqların nitq inkişafının xüsusiyyətləri diqqətlə öyrənilməli, onların fiziki inkişafı nəzərə alınmalıdır. Nitq inkişafı üzrə iş uşağın həyat fəaliyyətinin bütün sahələri ilə əlaqələndirilməlidir.

Nitq inkişafı üzrə işi səmərəli təşkil etmək üçün uşaqları dilləndirmək, onları həmin səsləri tələffüz etməyi, sözləri düzəltməyi öyrətmək lazımdır. Məşğələyə vaxtında hazırlaşmaq məqsədi, məzmunu və metod və priyomları düzgün müəyyənləşdirmək lazımdır. Məşğələ üçün lazım olan didaktik materilı və əyani vəsaiti əvvəlcədən hazırlamaq vacibdir. Uşaqların əldə edəcəkləri təlim yükünün intensivliyi təmin olunmalıdır. Uşaqlara gücləri şatan yüksək çətinlik səviyyəsində tapşırıqlar verilməlidir ki, fəal fəaliyyət tələb edilsin. Çətinlik olmadıqda isə məşğələ maraqsız görünər. Çalışmalarda tutuşdurma, ümumiləşdirmə, mühakimə yürütmək, əqli nəticəyə gəlmə halları tələb olunmalıdır. Məşğələ tərbiyələndirici xarakter daşımalı, onlarda doğma dilimizə onun öyrənilməsinə məhəbbət tərbiyə edilməlidir. Uşaqlarda vətənpərvərlik hissi tərbiyə edilməlidir.

Nitq inkişafı aparılan işlər uşağın xasiyyətinə, xarakterinə təsir göstərməli, ona fəal, dəqiq, inamlı, iradəli, qətiyyətli, səmimi, nəzakətli, intizamlı olmağı öyrətməlidir. Məşğələlər emosional təsir bağışlamalıdır. Məşğələ canlı, maraqlı təşkil olunmalıdır ki, uşaqlarda razılıq hissi yaransın. Ona görə də məşğələlərə zarafat, yumor daxil edilməlidir. İşə başlamazdan əvvəl öyrənmək həvəsi yaradılmalıdır. Uşaqlar yavaş-yavaş dilə yiyələndikcə onda məktəbə getmək, oxumaq həvəsi yaranır. Nitq inkişafı üzrə məşğələlər onun sahələri olan səs mədəniyyəti, lüğət işi və s. Ayrı-ayrılıqda təcrid olunmuş halda deyil, kompleks şəkildə aparılmalıdır. Nitq inkişafı üzrə iş prosesində məktəbə hazırlıq qrupu ilə sinfə verilən tələblər arasında əlaqə, varislik gözlənilməlidir.

**Məqalənin aktuallığı.** Məqalə ikinci sinifdə thsil alan şagirdlərin leksik nöqdanlarının aradan qaldırılması üzrə işin düzgün təşkili nöqteyi-nəzərdən aktual sayıla bilər.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, mıəqalədə kişikyaşlı məktəblilərin, o cümlədən ikinci sinifdə təhsil alan şagirdlərin tədris prosesində üzləşə biləcəkəri leksik çatışmazlıqlar haqda geniş məlumat verilir, bu nöqsanların aradan qaldırılmasının yolları açıqlanmaqla praktiki tövsiyələr verilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. N. Cəfərova. Nitq inkişafı üzrə işin metodikası. Bakı, 2018.
2. Azərbaycan dili (2-ci sinif). Dərslik. Bakı, 2021.
3. Azərbaycan dili. Tədris dili fənni üzrə 2-ci sinif üçün metodik vəsait. Bakı, 2021
4. Kəlbəliyev Ə. Azərbaycan dili dərslərində şagirdlərin nitq etiketlərindən düzgün istifadə bacarığının aşılanması imkanları. Bakı, 2002.


**Ф.М. Абдуллаева**

## Организация работы по ликвидации лексических единиц во втором классе

## Резюме

В общеобразовательных школах младшие школьники, а также второклассники часто допускают лексические ошибки в учебном процессе. Одним из важнейших вопросов является своевременное устранение лексических проблем, с которыми сталкиваются эти учащиеся, и на учителей начальных классов в этой сфере ложится большая ответственность.

В статье также представлена подробная информация о лексических недостатках, с которыми могут столкнуться учащиеся младшего школьного возраста, в том числе второклассники, в процессе обучения, и даны практические рекомендации по преодолению этих недостатков.

**F.M. Abdullayeva**

## Organization of work on the elimination of lexical points in the second grade

## Summary

In secondary schools, younger students, as well as second-graders, often make lexical mistakes in the teaching process. One of the most important issues is the timely elimination of lexical problems faced by these students, and primary school teachers have a great responsibility in this area.

The article also provides detailed information about the lexical shortcomings that young students, including second-graders, may face in the teaching process, and provides practical recommendations on how to overcome these shortcomings.

**Redaksiyaya daxil olub:** 17.05.2022